**Müqəddəs Fəxri oğlu ƏZİZZADƏ**
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı

# QLOBAL KONTEKSTDƏ KİMYA VƏ NEFT-KİMYA SAHƏSİNİN SƏMƏRƏLİLİYİNİN TƏMİN EDİLMƏSİNIN NƏZƏRİ ASPEKTLƏRİ

**Xülasə**

*Tədqiqatın məqsədi* qlobal kontekstdə kimya və neft-kimya sahəsinin səmərəliliyinin təmin edilməsinin nəzəri aspektlərinin araşdırılmasıdır. Qlobal şəraitdə kimya və neftkimya sahəsinin səmərəlilik problemləri baxılmış və ümumiləşdirilmişdir. Kimya və neftkimya sahəsinin inkişaf etdirilməsinin prioritet istiqamətləri verilmişdir. Qlobal çağırışlar əsas götürülməklə, kimya və neft-kimya sahəsinin səmərəliliyinin təmin olunması üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

*Tədqiqatın metodu* baxımından göstərmək mümkündür ki, məqalənin hazırlanması prosesində abstraksiya, deduksiya, induksiya, analiz, sintez və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Bunlarla bərabər, kimya və neft-kimya sahəsinin səmərəliliyinin təmin olunmasına dair aparılmış tədqiqatlarda yer almış metodoloji yanaşmalardan da istifadə edilmişdir.

*Tədqiqatın nəticələrinə gəlincə isə, alınmış* elmi nəticələrdən kimya və neft-kimya sahəsinin inkişafının intensivləşdirilməsi və səmərəliliyinin artırılması üzrə əlavə tədbirlərin və mexanizmlərin hazırlanmasında istifadə edilməsi perspektivləri mövcuddur.

***Açar sözlər**: qlobal çağırışlar, kimya və neft-kimya sahəsi, səmərəlilik problemləri, səmərəlilik problemlərinə nəzəri yanaşmalar, kimya və neft-kimya sahəsinin səmərəlilik məsələləri, kimya və neft-kimya sahəsinin inkişaf perspektivləri.*

**JEL:** L26; L52; L60
**UOT:** 338.36:338.33
**DOI:** https://doi.org/ 10,54414/RGYF3480

## Giriş

Sənaye müəssisələrinin uzunmüddətli inkişaf probleminin həlli səmərəliliyin artırılması ilə ayrılmaz şəkildə bağlıdır. Maddi ehtiyatlardan effektiv istifadə edilməsi, istehsal məsrəflərinin azaldılması, əmək məhsuldarlığının yüksəldilməsi və bu əsasda gəlirliyin təmin edilməsi sənaye müəssisələrinin səmərəliliyinin artırılmasının ən önəmli və təxirəsalınmaz vəzifələridir. Təsərrüfat subyektləri öz fəaliyyətlərini reallaşdırarkən müəssisələrin səmərəliliyinin artırılmasının yeni yollarını axtarmalı, səmərəlilik göstəricilərini aşağı sala bilən səbəbləri və amilləri təhlil etməlidirlər. Bazar münasibətlərinin indiki inkişaf mərhələsi müəssisələrdən öz səmərəliliyini artırmaq məqsədilə fəal addımlar atmağı tələb edir.

Səmərəlilik əldə edilən nəticələrin məsrəflərə nisbəti ilə müəyyənləşdirilən dəyərdir. Geniş mənada səmərəlilik seçilmiş fəaliyyət sahəsində məqsədə çatma səviyyəsi kimi qəbul edilir. Ümumiyyətlə, iqtisadi səmərəlilik təsirin mütləq dəyəri ilə xərclərin və resursların mütləq dəyərləri kimi iki dəyərin müqayisəsidir [1, s.155]. İqtisadi səmərəliliyin artırılmasının əsası istehsalda istifadə olunan resurs vahidinə düşən iqtisadi nəticələrin artırılmasıdır. İstehsalın səmərəliliyi bir-biri ilə sıx əlaqəli olan, istehsal prosesinin əsas elementlərindən nə dərəcədə səmərəli istifadə olunduğunu göstərən göstəricilər sistemində kəmiyyətcə ifadə olunur. Bu göstəricilər sistemi aşağıdakı prinsiplərə əsaslanmalıdır: istehsalın iqtisadi səmərəliliyinin meyar və göstəriciləri arasında əlaqənin təmin edilməsi; istehsalatda istifadə olunan bütün ehtiyatlardan istifadənin səmərəlilik səviyyəsinin müəyyənləşdirilməsi; idarəetmənin müxtəlif səviyyələrində istehsalın iqtisadi səmərəliliyinin ölçülməsinin təmin edilməsi; istehsal proseslərinin səmərəliliyini stimullaşdırmaq məqsədilə daxili istehsal ehtiyatlarının stimullaşdırılması və səfərbər edilməsi [2, s.26].

## Qlobal şəraitdə kimya və neft-kimya sahəsinin səmərəliliyinin təmin olunmasına dair nəzəri yanaşmalar

Məlumdur ki, sənaye müxtəlif sahələri özündə birləşdirir ki, belə sahələrdən biri kimya və neft-kimya sahəsidir. Dövlət büdcəsinin və tədiyyə balansının formalaşmasında, valyuta gəlirlərinin böyük hissəsinin təmin edilməsində ölkənin kimya və neft-kimya sahəsinə xüsusi yer ayrılır. Öz növbəsində əhalinin məşğulluq səviyyəsi, vergi daxilolmalarının həcmi və sosial-iqtisadi problemlərin həlli yolları xeyli dərəcədə həmin sahənin tarazlı və səmərəli inkişafından asılıdır. Kimya və neft-kimya sahəsinin inkişafının idarə edilməsinin strateji məqsədləri istehsal güclərini yeniləmək üçün xarici kapitalın cəlb edilməsinə yönəlmiş tədbirlər hesab olunur ki, bu da yeni bazarlara çıxmağa və rəqabətqabiliyyətlilik səviyyəsini yüksəltməyə səbəb olacaqdır. Həmin sahə iqtisadiyyatın önəmli sahəsi olduğundan, onun gələcək inkişafına aydın şəkildə formalaşmış sənaye siyasəti və strateji proqramlar təsir göstərir. Buna görə ən önəmli vəzifə ölkədə müasir kimya və neft-kimya sahəsinin yaradılması və inkişafının idarə edilməsinin səmərəliliyinə təsir edə biləcək nəzəri və metodoloji yanaşmaların hazırlanmasıdır.

Müasir kimya və neft-kimya sahəsinin səmərəli inkişafı müəyyən prinsiplərə əsaslanmalıdır ki, bunlar cədvəl 1-də əks olunub.

**Cədvəl 1**

**Kimya və neft-kimya sahəsinin inkişaf prinsipləri**

| Prinsiplər | Mahiyyəti |
|---|---|
| Sistemlilik | Dövlət tənzimləmə sisteminin bütün struktur elementlərinin kimya və neft-kimya kompleksinin idarə edilməsinin müxtəlif səviyyələrində qarşılıqlı əlaqəsini dəqiqləşdirməklə onların fəaliyyət mexanizminin müəyyənləşdirilməsi. |
| Təminatlılığ | İnvestisiyaların hüquqi müdafiəsi və qorunmasının mövcudluğu. |
| Qanunilik | İstehlakçıların yüksək qiymətlərdən və qeyri-adekvat xidmət keyfiyyətindən qorunmasının təmin edilməsi. |
| Açıqlıq | Tənzimləmə sisteminin investorlar və istehlakçılar üçün açıqlığı. |

**Mənbə:** müəllif tərəfindən hazırlanmışdır.

Kimya və neft-kimya sahəsinin səmərəliliyinin təmin olunmasına müxtəlif amillər təsir göstərir ki, onlardan ən önəmli olanlara daxildir:

- istehsalın texnoloji cəhətdən modernləşdirilməsi;
- sənaye müəssisəsinin uğurlu fəaliyyətinin əsası kimi çıxış edən əmək ehtiyatlarının kəmiyyət və keyfiyyət tərkibi;
- məhsuldarlığın artması;
- kadrların ixtisas səviyyəsi;
- məhsulun rəqabət qabiliyyətinin təmin edilməsi;
- ETT-nin nailiyyətlərinin reallaşdırılması zamanı mənfəətin artırılması;
- uğurlu ekoloji fəaliyyətlərlə bağlı problemlərin tam həlli;
- istehsal potensialının artırılması ilə bağlı fəaliyyətlər.

Kimya və neft-kimya sahəsinin səmərəliliyinin artırılması, ilk öncə, innovativ və texnoloji potensialın inkişafı ilə bağlıdır və bu baxımdan idarəetmə fəaliyyətində audit tədbirlərinin elmi metodoloji əsaslarla aparılması aktuallaşır. Məsələn, sənaye müəssisəsinin maliyyə nəticələrini qiymətləndirərkən, sürəti idarəetmə işçilərinin səmərəlilik dərəcəsini xarakterizə edə bilən maliyyə axınlarını təhlil etmək lazımdır. Müasir şəraitdə maliyyə auditi maliyyə idarəetmə vasitələrinin və müasir riyazi alətlərə əsaslanan texniki-iqtisadi təhlilin yeni üsullarının inkişafı yolu ilə getdikcə daha da təkmilləşdirilməlidir. Alimlərin qeyd etdiyi kimi, yalnız müasir kompüter texnologiyalarına əsaslanan bütün növ axınların (informasiya, material, əmək, enerji və maliyyə) sinxronlaşdırılması sistem elementlərinin iqtisadi cəhətdən optimal balansına əsaslanaraq müəssisənin inkişafının artan davamlılığını təmin edə bilər [3, s.132].

Kimya və neft-kimya sahəsinin inkişafının müasir mərhələsində həmin sahə müəssisələrində təsərrüfat fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə ETT-nin əsas istiqamətlərinin tətbiqi önəmli şərtdir. Bu, həmin sahənin modernləşdirilməsi baxımından xüsusilə önəmlidir. Dərin texnoloji modernləşdirmə olmadan həmin sahə müəssisələrinin gələcək inkişafı istehsal olunan

məhsulların və xammal xüsusiyyətlərinə görə praktiki olaraq mümkün deyil [4, s.88]. Kimya və neft-kimya sahəsində hər bir istehsal zəncirinin inkişafına qənaətbəxş təsir göstərən texniki bazanın, həmin müəssisələrin texnoloji prosesləri üçün elmi əsaslandırılmış və təşkilati-iqtisadi həllərin genişmiqyaslı modernləşdirilməsini reallaşdırmaq lazımdır [5, s.321]. Kimya və neft-kimya sahəsinin modernləşdirmə yolu ilə təşkilati, texniki və texnoloji geriliyin aradan qaldırılması həmin sahə istehsalının səmərəliliyinin artırılmasının önəmli amilidir. Bu, xammalın emalı proseslərinin və istehsalın diversifikasiyasının dərinləşdirilməsini, habelə istehsal proseslərinin təkmilləşdirilməsini təmin edir [6, s.96 ].

Kimya və neft-kimya sahəsinin modernləşdirilməsi mineral-xammal bazasının təkrar istehsalı sahəsində fəaliyyətin intensivləşdirilməsi ilə bilavasitə bağlı olmalıdır. Ümumi xərcləri azaltmaq məqsədilə kimya və neft-kimya sahəsində innovativ inkişaf proseslərinin stimullaşdırılması, riskli vəziyyətlərin yaranma ehtimalının azaldılması üçün tədbirlər planlaşdırılmalı, fondların yenilənməsi və ən son texnologiyaların tətbiqi yolu ilə xammalın emal dərəcəsi artırılmalı, yerli kimya və neft-kimya məhsullarının satış bazarları genişləndirilməli və diversifikasiya strategiyası reallaşdırılmalıdır.

### Müasir çağırışlar dövründə kimya və neft-kimya sahəsinin səmərəliliyinin təmin olunmasının intensivləşdirilməsi istiqamətləri

Qeyd edək ki, müasir bazar şəraiti neft emalı istehsalının rentabelliyinin artırılması zərurətini nəzərə alaraq karbohidrogenlərin iqtisadi dövriyyəyə cəlb edilməsi problemlərinin sürətləndirilmiş həllini tələb edir. Habelə, tələb olunan etibarlılıq dərəcəsinə, ekoloji və sənaye təhlükəsizliyinə diqqət yetirilməlidir. Bütün bunlar qabaqcıl texnologiyaların uğurla mənimsənilməsinə və tətbiqinə imkan verəcək ən son elmi əsaslı müxtəlif həllər çərçivəsində neft emalı müəssisələrinin maddi-texniki bazasının və texnoloji proseslərin genişmiqyaslı yenilənməsinə əsaslanmalıdır. Rəqabət qabiliyyətli kimya və neft-kimya sahəsinin effektiv fəaliyyət göstərməsinə imkan verə bilən sənaye klasterlərinin yaradılmasına və inkişafına da xüsusi diqqət yetirilməlidir. Çünki, klasterlər kimya və neft-kimya sahəsinin rəqabət qabiliyyətinin artırılmasında rol oynayır. Klaster həmin sahə xammalının potensialından istifadənin səmərəliliyinin artırılması və yüksək əlavə dəyərə malik bir sıra emal mərhələlərini birləşdirən mexanizmlərdən biridir. Klasterlərin inkişafı müxtəlif tip müəssisələrin səmərəli qarşılıqlı fəaliyyətinə əsaslanır [7, s. 69]. Klasterləşmə kimya və neft-kimya sahəsinin innovativ sahələrinin diversifikasiyası, həmin sahə müəssisələrinin qlobal istehsal zəncirlərinə inteqrasiyası proseslərinin idarə edilməsi üçün əsasdır.

Ölkədə kimya və neft-kimya sahəsinin istehsal infrastrukturunun müasirləşdirilməsi istiqamətində işlərin aparılmasına yönəlmiş tədbirlərin görülməsi aktualdır. Həmin sahənin istehsal infrastrukturu təşkil edilərkən istehsal texnologiyalarının təkmilləşdirilməsi, istehsal proseslərinin optimallaşdırılması, istehsal müəssisələrində təhlükəsizliyin və keyfiyyətin yüksəldilməsi, yeni məhsulların buraxılması imkanlarının yaradılması üçün innovasiyalardan istifadə edilməlidir [8, s. 13].

Müasir iqtisadiyyatda müəssisənin innovativ inkişafının kompleks yeni texnologiyaların inkişafı, yeni materialların tətbiqi mexanikləşdirmə və avtomatlaşdırma; elektrikləşdirmə; kimyalaşdırma; istehsalın elektronlaşdırılması və informasiyalaşdırılması və s. kimi istiqamətləri vardır. İnnovativ inkişafın bu kimi istiqamətlərinin tətbiqindən müsbət nəticə əldə etmək məqsədilə önəmli investisiyalarla yanaşı, effektiv idarəetmə də tələb olunur. Müəssisələrin innovativ inkişafı bilavasitə innovativ fəaliyyətlə bağlıdır. Bu fəaliyyət müəssisənin məhsuldarlığını, rəqabət qabiliyyətini və gəlirliliyini yüksəltməyə yönəlmiş yeni ideyalar, texnologiyalar, məhsullar və ya xidmətlərin yaradılması və reallaşdırılması prosesidir. İnnovativ fəaliyyət qloballaşma və bazarda əhəmiyyətli rəqabət şəraitində müəssisələrin böyüməsi və inkişafında mühüm amildir. Kimya və neft-kimya sahəsinin innovasiyalı inkişafı uzunmüddətli perspektivdə onların mənfəətinin artmasına, eləcə də bazarda rəqabətqabiliyyətli mövqelərinin möhkəmlənməsinə kömək edir.

Müəssisənin innovativ potensialının səviyyəsi nə qədər yüksək olarsa, onun böhran vəziyyətlərindən qaçmaq və xarici mənfi təsirlərin nəticələrini minimuma endirmək imkanları bir o qədər çox olur. Müəssisənin innovativ potensialının əsasını təşkil edən resurslara aşağıdakılar daxildir:

- maddi resurslar;
- texnoloji resurslar;
- maddi-texniki ehtiyatlar;
- insan resursları (insan kapitalı);
- informasiya resursları (rəqəmsal potensial);
- təşkilati və idarəetmə resursları və s.

Müəssisənin müxtəlif növ resurs və imkanlardan (ilk növbədə insan və maliyyə) ibarət innovativ potensialı bir sıra şərtlər və amillər nəzərə alınmaqla daim təkmilləşməyə və inkişafa ehtiyac duyur.

Kimya və neft-kimya sahəsinin mövcud mexanizmlərinin innovasiya və investisiya fəaliyyəti ilə yenilənməsi və daha məhsuldar səviyyəyə çatdırılması həmin sahənin səmərəliliyinin təmin edilməsində əsas məsələlərdən biridir. Həmin sahənin innovasiya və investisiya fəaliyyətinin ən səmərəli təşkili məqsədilə innovasiya və texnologiya bazarlarının inkişaf etdirilməsi, təhsilin səviyyəsinin yüksəldilməsi üçün zəruri tədbirlərin görülməsi, intellektual resurslardan səmərəli istifadə zəruridir. Bu istiqamətdə ölkədə yaradılan yeni sənaye və texnoparkların böyük önəmi vardır [9, s.31].

Kimya və neft-kimya sahəsində iqtisadi fəaliyyət prosesində həmişə kimya və neft-kimya xammalının emalının modernləşdirilməsi zamanı ən önəmli risklərin qiymətləndirilməsi kimi çətin bir vəzifə yaranır ki, bu, modernləşdirmə proqramlarına investisiya qoyuluşu ilə bağlıdır. Risklərin azaldılması hər bir sənaye müəssisəsinin təsərrüfat fəaliyyətinin yaxşılaşdırılması amilidir və bu risklərə əməl etmək kimya və neft-kimya emalının iqtisadi və digər strukturlarının mühüm funksiyasına çevrilir.

Kimya və neft-kimya sahəsinin səmərəliliyinin təmin edilməsi yaranan maliyyə risklərinin düzgün qiymətləndirilməsindən asılıdır, lakin bu zaman müəyyən çətinliklər yaranır. Qeyd edilən sahə müəssisələrinin maliyyə risklərinin qiymətləndirilməsində əlavə çətinlik onların dünya ticarət bazarlarında baş verən dəyişikliklərdən sıx asılılığıdır ki, bu da onların baş vermə sahəsinin ayrıca kəmiyyət və keyfiyyət təhlilinə ehtiyac yaradır. Bu müəssisələrin maliyyə risklərinin kəmiyyətcə artması təkcə maliyyə sabitliyinin itirilməsinə səbəb olmur, həm də büdcə gəlirlərinin əhəmiyyətli hissəsinin azalmasına səbəb olur. Maliyyə risklərinin səmərəli idarə edilməsi problemi böyük önəm daşıyır, çünki onlar kimya və neft-kimya sahəsinin fəaliyyətinin tərkib hissəsidir və onların baş verməsinin nəticələri həmin müəssisələr üçün son dərəcə arzuolunmazdır.

Kimya və neft-kimya sahəsində iqtisadi fəaliyyətin səmərəliliyini artırmaq məqsədilə müəssisələrin ehtiyatlarının axtarışına xüsusi önəm verilməlidir. Ehtiyatlardan istifadənin birinci yolu itkiləri və israfçılığı aradan qaldırmaqdır. İkinci yol daha müasir və məhsuldar texnologiyaların tətbiqidir. Kimya və neft-kimya sahəsinin inkişafının əsas istiqaməti bu sahədə itkilərin azaldılmasıdır. İtkilərin azaldılması istiqamətlərinə daxil edə bilərik:

- istehsalda xammal və resurslar itkisinin aradan qaldırılması;
- maddi ehtiyatlardan səmərəli və rasional istifadənin təmin edilməsi;
- iş vəzifələrinin və iş vaxtının müəssisənin müxtəlif bölmələrinin işçiləri arasında optimal şəkildə bölüşdürüldüyü kadr idarəetmə sisteminin səmərəli şəkildə formalaşdırılması;
- istehsal xərclərinin azaldılması və rentabelliyin artırılması hesabına istehsal fəaliyyətinin iqtisadi səmərəliliyinin artırılması.

Kimya və neft-kimya sahəsinin fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində ən vacib element xərclərin idarə edilməsidir. Xərcələrin idarə edilməsinin optimal strategiyasını aşağıdakı alqoritm kimi təklif edə bilərik (şəkil 3).

Kimya və neft-kimya müəssisəsinin fəaliyyətində xərclərin idarə edilməsi bir neçə mərhələdən ibarət olmalıdır. Həmin müəssisələrin xərclərinin idarə edilməsinin səmərəliliyini müəyyənləşdirərkən xərclərin rentabelliyi kimi göstəricidən istifadə edilir. Xərclərin rentabelliyi məhsulların, malların, işlərin və ya xidmətlərin istehsalı və satışına çəkilən xərclərin hər bir manatına satışdan əldə edilən mənfəətin miqdarını göstərən maliyyə nisbətidir.

Kimya və neft kimya sahəsinin səmərəliliyinin təmin olunmasının əsas istiqaməti istehsal proseslərinin optimallaşdırılmasıdır. İstehsal proseslərinin optimallaşdırılması müxtəlif üsullardan istifadə etməklə reallaşdırıla bilər, məsələn, logistika metodları, inventar idarəetmə metodları, istehsal personalının idarə edilməsi metodları və s. İstehsal proseslərinin idarə edilməsi sistemlərinin istifadəsi istehsal proseslərinin monitorinqi və idarə edilməsi, habelə maddi və maliyyə axınlarının

idarə edilməsi ilə istehsalın səmərəliliyini artırmağa imkan verir. Əlaqədar proseslərin istehsalın səmərəliliyinə təsirini nəzərə almaq və onları əsas istehsal prosesləri ilə bərabər qiymətləndirmək də vacibdir.

Logistika və inventarların idarə edilməsi kimi əlaqəli proseslər istehsalın səmərəliliyinə böyük təsir göstərə bilər və onların optimallaşdırılması istehsalın səmərəliliyini önəmli dərəcədə artıra bilər. Proseslərin, sistemlərin, kontekstlərin və kəmiyyətlərin idarə edilməsi üsulları kimya və neft-kimya sənayesində reinjiniring metodunun əsasını təşkil edir. Əlaqədar istehsal proseslərinin idarə edilməsi və təşkili üçün nəzəri və praktiki müddəalar çoxlu müxtəlif anlayışları, metodları və müəssisə idarəetmə sistemlərini ehtiva edir. İdarəetmə qərarlarının qəbulu zamanı idarəetmə modelinin formalaşdırılması üçün əsas kimi süni intellekt alqoritmlərindən istifadə edilir.

**Nəticə**

Beləliklə, müəyyən tədbirlərin görülməsi yolu kimya və neft-kimya sahəsinin səmərəliliyinin təmin edilməsi mümkündür:

- kimya və neft-kimya sahəsinin uzunmüddətli inkişafı üçün layihələrin hazırlanması, əsas diqqətin sintetik üzvi birləşmələrin istehsalının genişləndirilməsinə yönəldilməsi;
- ekoloji cəhətdən təmiz texnologiyalardan istifadə etməklə xammalın emalının dərinliyinin artırılması;
- əlavə məhsulların və istehsal tullantılarının emalı üçün müəssisələrin yaradılması;
- son sintetik məhsulların istehsalı sahələrinin texniki yenilənməsi yolu ilə aralıq məhsulların (ilkin monomerlərin) satışından hazır məhsula keçid;
- xammalın kompleks emalının reallaşdırılmasında inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edilməsi;
- xarici investisiyaların strateji önəm daşıyan kimya və neft-kimya sahəsinin uzunmüddətli inkişafına cəlb edilməsi məqsədilə ölkədə əlverişli investisiya mühitinin yaradılması;
- kimya və neft-kimya məhsullarının istehsalında özəl sahibkarlığın təşviqi;
- elm və texnikanın ən son nailiyyətlərindən və mövcud elmi-texniki potensialdan istifadə etməklə sahənin istehsal strukturunda yüksək texnologiyalı, bilik tutumlu məhsulların payının artırılması və s.

Kimya və neft-kimya sahəsinin səmərəliliyinin təmin edilməsi istiqamətində tədbirlər kifayət qədər müxtəlifdir. Odur ki, həmin sahə müəssisələri öz fəaliyyətlərinin xüsusiyyətlərinə əsaslanaraq, səmərəli fəaliyyət strategiyalarını hazırlamalı və reallaşdırmalıdırlar.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Кобозева, Е.М. Оценка эффективности производства на предприятиях нефтеперерабатывающей отрасли / Е.М. Кобозева, А.И. Мягкова // Молодежь и XXI век - 2024: Сборник научных статей 13-й Международной молодежной научной конференции. В 3-х томах, Курск, – 15–16 февраля 2024, – с. 155-159.
2. Волков, Г.Г. Повышение экономи-ческой эффективности деятельности предпри-ятия / Г.Г. Волков, Н.В. Кулаков // Научный вектор: сборник научных трудов. Том Выпуск 7. – Ростов-на-Дону: Ростовский государственный экономический университет "РИНХ", 2021. – с. 25-28.
3. Кондратьев, П.Г. Методические воп-росы оценки эффективности хозяйствен-ной деятельности нефтеперерабатывающих предприятий / П.Г. Кондратьев // Проблемы совершенствования организации производства и управления промышленными предпри-ятиями: Межвузовский сборник научных трудов. – 2015. № 2, – с. 127-133.
4. Калиниченко, М.В. Основные резервы повышения эффективности нефтеперер-абатывающего предприятия / М.В. Калиничен-ко // Вестник Самарского муниципального института управления. – 2015. № 3, – с. 88-94.
5. Лобанов, Н.К. Направления повышения эффективности нефтеперерабатывающих предприятий / Н. К. Лобанов, Р.А. Авдеева, Б.О. Хашир // Будущее науки -2022: Сборник научных статей 10-й Международной молодежной научной конференции, – Курск, – 21–22 апреля 2022, – с. 319-322.
6. Bəxtiyarova, A. Neft-qaz xammalından məhsuldar istifadənin təşkilində neft-kimya emal müəssisələrinin strateji rolu. Geostrategiya jurnalı. – Noyabr -dekabr 2023. № 06 (78), – s.93-97.
7. Əliyev, Ş.T. Azərbaycanda neftkimya emal müəssisələrinin rəqabətqabiliyyətinin artırılması yolları / Ş.T. Əliyev // Elmi Xəbərlər. Sosial və Humanitar Elmlər Bölməsi. – 2024. – Cild 20, №. 1, – s. 67-72.
8. Аглиуллина, А.А. Повышение эффективности деятельности нефтехими-ческого предприятия / А.А. Аглиуллина, И.С. Головащенко, Е.С. Андреева, Г.Н. Ларионова //

Экономика и бизнес: теория и практика. – 2023. № 12-1(106), – с. 12-15.

9. Şəkərəliyeva, Z.A. Qeyri-neft sektorunun ixrac potensialının inkişafi problemləri. Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş diss. avtoreferatı./ – Bakı, 2024. – 56 s.

**Мугаддас Фахри оглы АЗИЗЗАДЕ**
Докторант Азербайджанского Государственного
Университета Нефти и Промышленности

## ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ ОБЕСПЕЧЕНИЯ ЭФФЕКТИВНОСТИ ХИМИЧЕСКОЙ И НЕФТЕХИМИЧЕСКОЙ ОТРАСЛИ В ГЛОБАЛЬНОМ КОНТЕКСТЕ

**Резюме**

*Целью исследования* является рассмотрение теоретических аспектов обеспечения эффективности химической и нефтехимической промышленности в глобальном контексте. Рассмотрены и обобщены проблемы эффективности химической и нефтехимической отраслей в глобальных условиях. Указаны приоритетные направления развития химической и нефтехимической отраслей. Даны рекомендации и предложения по обеспечению эффективности химической и нефтехимической отраслей с учетом глобальных вызовов.

*Метода исследования* заключается в том, что в процессе подготовки статьи использовались методы абстракции, дедукции, индукции, анализа, синтеза и обобщения. Наряду с этим использовались и методические подходы в исследованиях по обеспечению эффективности химической и нефтехимической отраслей.

*Результатов исследований* заключается в том что, имеются перспективы использования полученных научных результатов при разработке дополнительных мер и механизмов интенсификации развития и повышения эффективности химической и нефтехимической отраслей.

***Ключевые слова:*** *глобальные вызовы, химическая и нефтехимическая сфера, проблемы эффективности, теоретические подходы к проблемам эффективности, вопросы эффективности химической и нефтехимической отрасли, перспективы развития химической и нефтехимической отрасли.*

**Mugaddas Faxri AZIZZADE**
Doctoral student of Azerbaijan State Oil and Industry University

## THEORETICAL ASPECTS OF ENSURING THE EFFICIENCY OF THE CHEMICAL AND PETROCHEMICAL INDUSTRY IN A GLOBAL CONTEXT

**Summary**

*The aim of the study* is to consider the theoretical aspects of ensuring the efficiency of the chemical and petrochemical industry in a global context. The problems of the efficiency of the chemical and petrochemical industries in global conditions are considered and summarized. Priority areas for the development of the chemical and petrochemical industries are indicated. Based on global challenges, recommendations and proposals were given to ensure the efficiency of the chemical and petrochemical industries.

*From the point of view of the research method*, it can be shown that in the process of preparing the article, the methods of abstraction, deduction, induction, analysis, synthesis and generalization were used. Along with this, the methodological approaches laid down in studies on ensuring the efficiency of the chemical and petrochemical industries were also used.

*As for the research results,* there are prospects for using the obtained scientific results in the development of additional measures and mechanisms for intensifying the development and increasing the efficiency of the chemical and petrochemical industries.

***Keywords***: *global challenges, chemical and petrochemical sphere, efficiency problems, theoretical approaches to efficiency problems, issues of efficiency of the chemical and petrochemical industry, development prospects of the chemical and petrochemical industry.*